**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

*На правах рукописи*

**ШАФА ВАХИД КЫЗЫ ГАСЫМОВА**

# РЕФОРМЫ В ООН И АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА

**Специальность: 5901.01 – “Международные отношения”**

**АВТОРЕФЕРАТ**

**Диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**Баку-2014**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

---

Əlyazması hüququnda

**ŞƏFA VAHİD QIZI QASIMOVA**

# BMT-DƏ İSLAHATLAR VƏ AZƏRBAYCAN RESPUBLİKASI

**İxtisas: 5901.01 – "Beynəlxalq münasibətlər"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və Xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
N.A.Axundov

**Rəsmi opponentlər:** **s**iyasi elmlər doktoru,
A.M.Mirabdullayev
siyasi elmlər üzrə fəlsəfə doktoru
M.M.Əliyeva

**Aparıcı təşkilat:** AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsi

Müdafiə _28/03______ 2014______ tarixində, saat _______-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1001, Bakı şəhəri, M.Lermontov küçəsi., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___"___________ 2014-cü ildə göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının**
**Elmi katibi, fəlsəfə üzrə**
**fəlsəfə doktoru** **S.İ.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı**. 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) təsis edilməsi dövlətlərarası çoxtərəfli əməkdaşlığın inkişafında ən yüksək mərhələni təşkil edir. BMT Nizamnaməsinin 1-ci maddəsində nəzərdə tutulan məqsədlər – beynəlxalq sülh və təhlükəsizliyi qoruyub saxlamaq, millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək, iqtisadi, sosial, humanitar, mədəni xarakterli beynəlxalq problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək və s. – təşkilatı çoxtərəfli diplomatiyanın yeganə universal forması kimi səciyyələndirir. Lakin BMT-nin fəaliyyətinin və əhatə dairəsinin qloballığı onun müasir dövrdə beynəlxalq münasibətlərdə mühüm rola malik olması ilə yanaşı, fəaliyyətində bir çox nöqsanların yaranmasına gətirib çıxarmışdır. BMT XX əsrin 90-cı illərində baş vermiş bir sıra münaqişə və böhranların tənzimlənməsində aparıcı rol oynamaqdan kənarda qalmışdır. 1999-cu ildə NATO-nun BMT-nin razılığı olmadan keçmiş Yuqoslaviyanı bombalaması, 2003-cü ildə ABŞ-ın BMT-nin sanksiyası olmadan İraqa qarşı hərbi əməliyyatlara başlaması, uzun illər davam edən İsrail-Fələstin münaqişəsi, eləcə də digər münaqişələrin nizamlanmasında BMT-nin nümayiş etdirdiyi səriştəsizlik təşkilatın dünyadakı nüfuzuna zərbə vurmuş və onun əsas orqanlarının fəaliyyətində ciddi dəyişikliklər edilməsi məsələsini aktuallaşdırmışdır.

Hələ 1994-cü ildə BMT Baş Assambleyasındakı çıxışında, ümummilli lider Heydər Əliyev BMT-də islahatlar prosesinə dair öz dəyərli fikirlərini dünya ictimaiyyəti ilə bölüşərək bildirmişdir ki, "...bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında, şübhəsiz ki, aparıcı rol oynayır. Lakin Təhlükəsizlik Şurası qarşısında hələ çətin sınaqlar durur: yeni şəraitdə öz səmərəli fəaliyyətini dünya birliyinə sübut etmək. Bu gün Təhlükəsizlik Şurası öz qətnamələrinin təminatlı şəkildə yerinə yetirilməsinə nail olmaqla həmişəkindən daha çox əzmkarlıq

göstərməlidir. Ümid edirik ki, Şuranın tərkibinin genişləndirilməsi onun möhkəmləndirilməsinə kömək edəcəkdir”.[1]

Dissertasiya işinin aktuallığını aşağıdakı tezislərlə ifadə etmək olar:

1. Tədqiqat probleminin aktuallığı ilk növbədə BMT-nin beynəlxalq münasibətlər sistemində oynadığı mühüm rolla bağlıdır. Belə ki, BMT beynəlxalq inkişafın aktual problemlərinin müzakirəsi üçün dövlətlər arasında mövcud olan forumların ən böyüyüdür, onun Nizamnaməsi beynəlxalq hüququn özəyini təşkil edir. BMT beynəlxalq müharibə və sülh məsələlərinin həllində, o cümlədən hərbi gücün tətbiqi məsələsində həlledici səlahiyyətə malikdir. Bu baxımdan da BMT-də gedən bütün proseslər, o cümlədən təşkilatın fəaliyyətinin gücləndirilməsinə yönəlmiş islahatlar prosesi onun bütün üzvləri kimi Azərbaycanın da maraqlarındadır.

2. Mövzunun aktuallığını şərtləndirən digər bir amil BMT-nin yarandığı dövrlə müasir dövrün beynəlxalq münasibətlər sistemi arasında kəmiyyət baxımından olan fərqlərdir. Belə ki, BMT yaradılanda onun üzvlərinin sayı 51 idisə, hazırda bu üzvlərin sayı 193-ə çatmışdır, bu isə BMT-nin strukturunda, xüsusilə onun əsas orqanlarından biri olan Təhlükəsizlik Şurasında kəmiyyət dəyişikliklərinin edilməsini zəruri edir.

3. Beynəlxalq münasibətlərdə yaranmış keyfiyyət dəyişikləri də BMT-nin fəaliyyətində islahatların aparılmasını tələb edir. Bu baxımdan, BMT-nin qloballaşma dövründə beynəlxalq münasibətlərin yeni təhdidlərinə cavab qabiliyyətini artırmaq üçün onun fəaliyyəti və strukturunda islahatların aparılması aktuallıq kəsb edir.

4. Təşkilatın qərar və qətnamələrinə əməl olunmaması hazırda narahatçılıq doğuran əsas problemlərdəndir. Uzağa getməyərək, BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrin Ermənistan tərəfindən icra edilməməsini qeyd etmək yerinə düşər. Bu məsələyə öz münasibətini bildirən ölkə başçısı İlham Əliyev BMT Baş Assambleyasının 59-cu sessiyasındakı çıxışında Təhlükəsizlik Şurasının qətnamələrinin həyata

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, 20 cilddə. Bakı, 1997-2007, II kitab, s.307-308

keçirilməsinin işlək mexanizminin yaradılmasını çox mühüm vəzifə kimi ön plana çəkmişdir.[2]

5. Dissertasiya işinin aktuallığını şərtləndirən digər bir amil, Azərbaycanın son dövrlərdə beynəlxalq münasibətlər sistemində rolunun güclənməsi, beynəlxalq nüfuzunun artması, regional liderliyi və 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ilə bağlıdır. Belə ki, ölkəmizin hazırkı beynəlxalq mövqeyi bu kimi vacib məsələlərə seyrici qismində münasibət göstərməyə icazə vermir və ölkəmiz beynəlxalq əhəmiyyət daşıyan BMT-də islahatlar məsələsinə münasibətdə əsaslandırılmış mövqeyini ortaya qoymalıdır.

Göründüyü kimi, mövzunun aktuallığını şərtləndirən bütün bu amillər onun tədqiq olunmasını vacib edir. Bu problemin araşdırılması BMT-nin islahatları məsələsində Azərbaycanın milli maraqlarını təmin edəcək mövqeyin formalaşdırılmasına xidmət edə bilər.

**Problemin işlənmə dərəcəsi**. Qeyd etmək lazımdır ki, tədqiq olunan problem ölkəmizdə bu vaxta kimi, demək olar ki, işlənməmişdir.

BMT-nin fəaliyyəti və bu qurumda aparılan islahatlar məsələsi xarici ədəbiyyatlarda, xüsusilə qərb alimləri tərəfindən geniş tədqiq olunmuşdur. Bunlardan A.J. Qrum, P.Teylor, R.Takur, E.C.Lak, G.Finizzio, E.Qallo, H.Fişer, P.Dançin, C.Tavares və başqalarının əsərlərində BMT-nin fəaliyyəti və təşkilatda gedən islahatlara dair maraqlı faktlar öz əksini tapmışdır.[3]

---

[2] Statement by H.E. Ilham Aliyev at the General Debate of the 59$^{th}$ session of the General Assembly, www.un.org/webcast/ga/59/

[3] Taylor P. and Groom A.J "The United Nations at the millennium. The principal organs" New-York, 2000, 420p.; Rhamesh Thakur, The United Nations, Peace and Security: From Collective Security to Responsibility to Protect , Cambridge University Press, 2006, 370 p.; [3] Edward C.Luck "UN Security Council: Practice and promise", Routledge, London and New York, 2006, 168 s.; Gioganni Finizzio and Ernesto Gallo, Democracy at the United Nations: Un reforms in the age of Globalization (Federalism), Peter Lang Inernational Academic Publishers, 2013, 359 s.; Horst Fischer and Peter Danchin "United Nations Reform and New Collective Security", Cambirdge University Press, 2010, 450 s.; Joao Tavares, United Nations Peacekeeping Operations: History, Challenges and the Call for Reform, Euclid University Press, Washington DC, 2010, 154 s.

A.J. Qrum və P.Teylorun “Birləşmiş Millətlər Təşkilatı minilliyin astanasında: əsas orqanlar” adlı əsərində BMT-nin əsas orqanlarının yarandığı gündən bu günə kimi keçdiyi inkişaf yolu öz əksini tapmış, onların fəaliyyətində mövcud olan çatışmazlıqlar əks olunmuş və təşkilatın fəaliyyətinin gücləndirilməsi, yeni minilliyin çağırışlarına cavab verə bilməsi üçün onun islah olunmasına dair bir sıra maraqlı fikirlər əks olunmuşdur.

E.C.Lakın “BMT-nin Təhlükəsizlik Şurası: təcrübə və vəd” adlı əsərində Təhlükəsizlik Şurasının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi üçün irəli sürülmüş bir çox təkliflər öz əksini tapmışdır. Şuranın hazırkı strukturunun dünyanın müasir mənzərəsini özündə əks etdirmədiyini bildirən E.C.Lak bu qurumun genişləndirilməsinin zəruri olduğunu vurğulamışdır.

BMT Baş Katibinin “BMT-nin yeniləşdirilməsi: islahatlar proqramı” (1997)[4], “BMT-nin gücləndirilməsi: növbəti dəyişiklər üçün gündəlik” (2002)[5], “Daha təhlükəsiz dünya: bizim ortaq məsuliyyətimiz” (2004)[6] və “Daha geniş azadlıqda: hamı üçün təhlükəsizlik, inkişaf və insan hüquqlarına doğru” (2005)[7] adlı hesabatlarında da BMT-nin fəaliyyətinin və strukturunun təkmilləşdirilməsinə dair maraqlı təkliflər irəli sürülmüşdür.

BMT-nin təsis olunması, onun fəaliyyəti, ixtisaslaşmış qurumları, eləcə də BMT Nizamnaməsinin təşkilatın fəaliyyəti üçün yaratdığı imkanlar rus müəlliflərindən S.B.Krılovun “BMT-nin yaradılması tarixi”[8] və Y.A.Şibayevanın “BMT-nin ixtisaslaşmış

---

[4] Renewing the United Nations: a programme for reform. Resolution adopted by the General Assembly. A/RES/52/12. 14 November 1997.

[5] Strengthening the United Nations: An agenda for further change”, Report of the Secretary-General, A/57/387, 9 September 2002

[6] “A more secure world: our shared responsibility”, Report of the Secretary-General’s High-level Panel on Threats, Challenges and Change, A/59/565, 2 December 2004, 99 p.

[7] “In larger freedom: towards development, human rights and security for all”, Report of the Secretary-General, A/59/2005, 21 March 2005, 62 p.

[8] Крылов С.Б. История создания ООН. Москва, 1960, 343 s.

qurumları”[9],“Beynəlxalq təşkilatların struktur və fəaliyyətinin hüquqi məsələləri”[10] əsərlərində təhlil olunur.

Azərbaycan-BMT əlaqələri və BMT-nin islahatları məsələsində Azərbaycanın mövqeyinə gəldikdə isə, Azərbaycan Respublikasının 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra həyata keçirdiyi xarici siyasət və beynəlxalq əlaqələrinin ümumi nəzəri problemləri barədə R.Ə.Mehdiyev, Ə.M.Həsənov, S.T.Qəndilov, H.Rəcəbli, N.A.Məlikova, F.Abbaszadə və başqalarının əsərlərində qiymətli materiallara, sənəd və faktlara rast gəlirik .[11]

Ə.Həsənovun “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti” adlı dərsliyində BMT-də aparılan islahatlarla bağlı Azərbaycanın mövqeyi ümumi şəkildə əks olunmuş, ölkəmizin Təhlükəsizlik Şurasının islahatları məsələsində Almaniya və Yaponiyanın bu qurumda daimi üzvlüyü təklifini dəstəklədiyi, eləcə də SSRİ-nin dağılmasından sonra Şərqi Avropa regionunda dövlətlərin sayının əhəmiyyətli dərəcədə artdığını nəzərə alaraq, bu

---

[9] Шибаева Е.А. Специализированные учреждения ООН (международно-правовые аспекты). М.1966, 112 с.

[10] Шибаева Е.А. Правовые вопросы структуры и деятельности международных организаций. М. 1988, 192 с.

[11] Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, “Yeni nəşrlər evi” 2005, 463 s; Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, 1998, 368 s.; Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, 752 s.; Həsənov Ə.M. Müstəqil Azərbaycan dövlətinin xarici siyasəti, Heydər Əliyev siyasi məktəbini öyrənirik, Bakı, 1997, s.126-142; Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsi // Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi, Bakı, 2003., s. 571-582; Həsənov Ə.M., Məmmədov N. Azərbaycan Respublikasının xarici siyasəti müstəqilliyimizin və dövlətçiliyimizin əbədiliyinin qarantıdır. Müstəqil dövlətimiz və parlamentimiz. Bakı, 2001, s.137-160; Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996, 135 s.; Qəndilov S.T. Müstəqillik illərinin düşüncələri. Bakı 2006, 500 s.; Rəcəbov H. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. Bakı, 2003, 254 s.; Məlikova N.A. BMT strukturlarında Azərbaycan diplomatiyasının xüsusiyyətləri. Bakı-Elm, 2007, 148 s.; Аббасзаде Ф.Э. Функцианирование механизма ООН по предотвращению, управлению и разрешению споров и конфликтов, Автореферат диссертации к полит. н., Баку 2001, 26 s.

regiona aid ölkələrə Şurada bir əlavə yerin verilməsinin tərəfdarı olduğu qeyd olunmuşdur.[12]

Bununla belə, problemlə bağlı elmi ədəbiyyatın təhlili göstərir ki, ölkəmizdə bu günə kimi BMT-də islahatlar və Azərbaycan Respublikasının bu məsələdəki maraqları və mövqeyinin tədqiqi sahəsində dissertasiya işləri yazılmamışdır. Bu da təqdim olunan dissertasiyanın bu sahədəki boşluğun aradan qaldırılmasında müəyyən addım kimi qiymətləndirilməsinə imkan verir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini BMT-nin fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilmiş islahatlar prosesi və Azərbaycanın bu məsələdə maraqları, predmetini isə BMT-nin əsas orqanlarının islahatları ilə bağlı irəli sürülmüş təkliflər və islahatların ölkəmizin maraqlarına təsir xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin əsas məqsədi BMT-də gedən islahatlar prosesini təhlil etmək və ölkəmizin bu məsələdə maraqlarını müəyyənləşdirməkdən ibarətdir.

Dissertasiya işində qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- BMT-nin fəaliyyətində ilkin dövrlərdən yaranan çatışmazlıqların səbəblərinin müəyyənləşdirilməsi;
- BMT-də islahatlar məsələsində prioritetlərin və çətinliklərin təhlili;
- Təşkilatın əsas orqanlarının islahatları ilə bağlı indiyədək irəli sürülmüş təkliflərin, eləcə də böyük dövlətlərin və birliklərin məsələyə dair mövqeyinin təhlili;
- BMT-nin dünyada sülhün və təhlükəsizliyin təminatında rolunun gücləndirilməsi yollarının təhlili;
- BMT-də gedən islahatlar prosesinin Azərbaycanın siyasi maraqlarına, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə təsir imkanlarının tədqiq edilməsi;
- BMT Baş Assambleyasında və Təhlükəsizlik Şurasında Azərbaycanın son dövrlərdə göstərdiyi diplomatik fəaliyyətin işıqlandırılması;
- BMT sistemində aparılmış islahatlar çərçivəsində yaradılmış İnsan Hüquqları Şurası ilə Azərbaycan arasında əməkdaşlığın tədqiq edilməsi.

---

[12] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.437-451

**Tədqiqatın nəzəri-metodoloji əsasları**. Tədqiqat zamanı nəzəri baza kimi əsasən ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin BMT-nin islahatları və Azərbaycan-BMT münasibətləri ilə bağlı irəli sürdükləri konseptual fikir və müddəalara, eləcə də bu sahədəki fundamental əsərlərə müraciət edilmişdir. Bu mənbələr BMT-də gedən islahatlar prosesində Azərbaycanın maraqlarının və mövqeyinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Dissertasiya işinin metodoloji əsasını analiz və sintez, müqayisəli və sistemli siyasi təhlil, kontent-analiz və digər təhlil metodları, eləcə də proqnostik və statistik təhlil kimi ümumməntiqi tədqiqat üsulları təşkil etmişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Böyük dövlətlərin, xüsusilə BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin rəhbərlərinin, ictimai-siyasi xadimlərin məruzə və nitqləri, BMT-nin fəaliyyəti və təşkilatda aparılan islahatlarla bağlı BMT Baş Katibi tərəfindən hazırlanan hesabatlar və beynəlxalq səviyyədə qəbul edilmiş sənədlər, həmçinin Azərbaycanın xarici siyasət institutunun rəhbər şəxslərinin çıxışları dissertasiyanın yazılmasında mühüm mənbə rolunu oynamışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi ondan ibarətdir ki, burada ilk dəfə olaraq Azərbaycanın beynəlxalq əlaqələri və xarici siyasətində tədqiqat obyekti olmayan BMT-də islahatlar məsələsində ölkəmizin maraqları və mövqeyi problemi dissertasiya mövzusu kimi tədqiq edilir və öyrənilən problemin bir sıra aspektlərinə müəllifin baxışı təklif olunur.

İşin elmi yeniliyi konkret olaraq aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- BMT-də gedən islahatlar prosesi xarici ədəbiyyatda, xüsusilə qərb alimləri tərəfindən araşdırılsa da, ölkəmizdə bu mövzu tədqiq edilməmişdir. Bu baxımdan BMT-də gedən islahatlar prosesi Azərbaycanın maraqları prizmasından ilk dəfə araşdırılmışdır;
- Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, BMT-nin Nizamnaməsində nəzərdə tutulmuş məqsəd və funksiyaları yerinə yetirə bilməsi üçün təşkilatda müasir beynəlxalq münasibətlərdə baş vermiş kəmiyyət və keyfiyyət dəyişikliklərinə uyğun olaraq islahatların aparılması zəruridir;
- BMT Təhlükəsizlik Şurasının islahatları ilə bağlı təkliflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin

həllinə, eləcə də bu qurum tərəfindən münaqişə ilə bağlı qəbul edilən qətnamələrin reallaşdırılmasına təsir imkanları baxımından tədqiq edilmişdir;

- BMT sistemindəki islahatlar çərçivəsində Baş Assambleya və Təhlükəsizlik Şurası arasında mümkün səlahiyyət bölgüsü və bunun Azərbaycanın maraqlarına təsir imkanları araşdırılmışdır;
- BMT sistemində aparılmış islahatlar çərçivəsində yaradılmış İnsan Hüquqları Şurasında Azərbaycanın fəaliyyəti və göstərdiyi təşəbbüslər təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın müddəalarından, nəzəri və praktiki əhəmiyyət kəsb edən nəticələrindən beynəlxalq münasibətlərlə məşğul olan tədqiqatçılar və mütəxəssislər tərəfindən, eləcə də ali məktəblərdə müvafiq kursların tədrisində, mövzu ilə bağlı mühazirələrin, elmi konfransların hazırlanmasında, həmçinin xarici siyasət strukturlarının fəaliyyətində istifadə oluna bilər. Dissertasiya işinin nəticələri və materialları bu istiqamətdə daha dərin elmi axtarışların aparılması üçün zəmin ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" və "Tarix" kafedralarının birgə iclasında müzakirə edilərək müdafiəyə tövsiyə edilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri xaricdə və ölkədə nəşr olunan elmi jurnallarda, Dövlət İdarəçilik Akademiyasında keçirilən aspirant və dissertantların elmi praktik konfranslarının materiallarında elmi məqalə və tezislər formasında dərc olunmuşdur.

**Tədqiqat işinin strukturu**. Dissertasiya işi giriş, üç fəsil, səkkiz paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyatdan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya mövzusunun aktuallığı konkret bəndlərlə əsaslandırılır. Burada qeyd olunmuşdur ki, BMT-nin müasir dövrün beynəlxalq təhdidlərinə çevik və düzgün cavab verə bilməsi üçün onun əsas orqanlarında islahatların aparılması zəruridir və bu islahatlar təşkilatın bütün üzvləri kimi Azərbaycanın da maraqlarına toxunur.

Dissertasiyanın I fəsli **“BMT-də islahatlar probleminin ümumi səciyyəsi və təşkilatın əsas orqanlarının islahatları”** adlanır. Bu fəslin **“BMT-nin formalaşması və islahatları şərtləndirən amillər”** adlı birinci paraqrafında təşkilat yaradıldığı gündən onun bir çox üzvlərini qane etməyən problemlər təhlil olunur. Bu paraqrafda BMT-nin yarandığı dövrün tarixi reallıqlarına uyğun olaraq formalaşdırıldığı və beynəlxalq münasibətlərin müasir mərhələsində real vəziyyəti əks etdirmədiyi qənaətinə gəlinir. Ümumilikdə götürdükdə, aparılan təhlillərə əsasən, BMT-də islahatların həyata keçirilməsini şərtləndirən amillər sırasına aşağıdakıları aid etmək olar: BMT-nin ilk yarandığı dövrdən sistemdə olan ədalətsizlik, yəni təşkilatın dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanmasına baxmayaraq, Təhlükəsizlik Şurasında (TŞ) beş daimi üzvün olması və onlara məxsus olan veto hüququ; BMT Baş Assambleyasının dünyanın bütün dövlətlərinin təmsil etməsinə və hər bir dövlətin bu qurumda mövqeyinin və rəyinin nəzərə alınması imkanının olmasına baxmayaraq, onun dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi məsələsində yetəri qədər səlahiyyətinin olmaması; Təşkilatın qarşısına qoyulan məqsədlərin və onun üçün müəyyənləşdirilmiş vəzifələrin həddindən artıq çox olması və fəaliyyət sahələrinin çoxşaxəliliyi nəticəsində yaranmış əlaqələndirmə zəifliyi; Beynəlxalq münasibətlərin yeni inkişaf mərhələsinə keçməsinə, yəni soyuq müharibənin başa çatması və yeni dünya düzənin yaranmasına baxmayaraq, sistemin evolyusiya etmək qabiliyyətinin olmaması və beynəlxalq münasibətlərin 60 il bundan əvvəlki mənzərəsini əks etdirməsi; Təşkilatın əsas orqanlarının, xüsusilə də TŞ-nin fəaliyyətinin Nizamnamədə əks olunmuş prinsiplərə əsasən deyil, onun daimi üzvlərinin istək və maraqlarına əsasən fəaliyyət göstərməsinin təşkilatın digər üzvlərini qane etməməsi.

Birinci fəslin “**BMT-də islahatlar məsələsində əsas prioritetlər və mövcud çətinliklər**” adlanan ikinci paraqrafında təşkilatda islahatların aparılması üçün böyük dövlətlərin və Baş Assambleyada əsas dövlət qruplaşmalarının prioritetləri təhlil olunur. Təhlillərdən məlum olur ki, BMT üzvlərinin “BMT-nin islahatları” anlayışına vahid yanaşması yoxdur. Belə ki, inkişaf etmiş ölkələr üçün islahatlar anlayışı daha çox büdcə məsələləri, Katibliyin və Baş Katibin funksiyalarının gücləndirilməsi, inkişaf etməkdə olan ölkələr üçün isə daha çox TŞ-nin genişləndirilməsi və beynəlxalq sülhün və

təhlükəsizliyin təmin edilməsində Baş Assambleyanın funksiyalarının artırılması ifadə edir.

BMT-nin səmərəli və hərtərəfli islahatına nail olmaq BMT üzvləri üçün mühüm və davamlı bir vəzifədir. İslahat təkliflərini irəli sürərkən müəlliflər bu islahatların real təhdidlərlə qarşılaşacağını bilməlidirlər. BMT-də müvafiq islahatların aparılması üçün əsas təhdid milli maraqların və baxışların müxtəlifliyidir. Hər bir BMT üzvünün öz siyasi gündəliyi və xarici siyasəti qarşısında duran məqsədləri var. Bunun nəticəsi olaraq, onlar islahatları necə həyata keçirmək məsələsində müxtəlif baxışlara malik olurlar. Bir sıra hallarda üzv dövlətlər arasında konsensusun olmaması mühüm qərarların qəbul edilməsində gecikməyə və ya uğursuzluğa səbəb olur. Digər tərəfdən isə demək olar ki, prosesdə fəal olan bütün dövlətlər BMT-nin islahatları prosesini öz maraqlarını reallaşdırmaq vasitəsi kimi istifadə etməyə çalışırlar. Bu da üzv dövlətlər arasında etibar mühitini zəiflədir, belə ki, hər bir dövlət təbii olaraq digər dövlət tərəfindən irəli sürülmüş təklifin həqiqətən təşkilatı gücləndirmək istəyindən və ya milli maraqlardan irəli gəldiyini düşünməli olur.

BMT-də, xüsusilə də onun əsas orqanları olan TŞ-də islahatların aparılmasını çətinləşdirən əsas problemlərdən biri də Şuranın beş daimi üzvünün, xüsusilə də ABŞ, Çin və Rusiyanın pərdəarxası diplomatiya vasitəsilə bu prosesə mane olmalarıdır.

İslahatların reallaşdırılması üçün digər bir problem maliyyə mənbələrinin məhdudluğudur. BMT-də yeni maliyyə mənbəyi tələb edən təşəbbüslərin qəbulu çətin olduğundan, irəli sürülən təşəbbüslər çox vaxt mövcud maliyyə imkanları çərçivəsində olur.

İslahatların uğurla həyata keçirilməsi üçün bu prosesin xaricdən təsirlərə də məruz qalması nəzərə alınmalıdır. BMT üzvləri arasında təşkilatdan kənarda olan münasibətlər islahat cəhdləri qarşısında təhdid kimi çıxış edə bilər.

Dissertasiyanın **“BMT-nin əsas orqanlarında islahatların aparılması istiqamətində diplomatik və siyasi səylər”** adlanan ikinci fəslinin birinci paraqrafı **“BMT-nin əsas orqanlarının fəaliyyətində olan problemlər və onların aradan qaldırılması yolları”**na həsr olunmuşdur. Bu paraqrafda BMT Baş Asambleyası, İqtisadi və Sosial Şura, Beynəlxalq Ədalət Məhkəməsi və BMT Katibliyinin fəaliyyətində olan çatışmazlıqlar və onların aradan qaldırılması üçün irəli sürülmüş təkliflər təhlil edilir.

Baş Assambleyanın islahatları BMT-nin gündəliyində duran əsas məsələlərdən biri kimi çıxış edir. Üzv dövlətlər üçün bərabər imkanlar yaradan və təşkilatın büdcəsinin təsdiqlənməsi, onun digər məşvərətçi orqanlarının, o cümlədən TŞ-nin qeyri-daimi üzvlərinin seçilməsi kimi mühüm funksiyalar daşıyan bir orqan kimi son illərdə Baş Assambleyanın nüfuzunun və təşkilatın ümumi işinə töhfəsinin aşağı düşməsi narahatlıq doğurur. Onun nüfuzunun aşağı düşməsi isə bütün BMT sisteminin nüfuzuna xələl gətirən bir amildir. Çünki Assambleya bütün mexanizmin mərkəzində durur. Bu baxımdan, onun səmərəli fəaliyyət göstərməsi bütün beynəlxalq ictimaiyyətin maraqlarına xidmət edən bir amildir. Baş Assambleyanın fəaliyyətinin səmərəliliyini artırmaq üçün onun gündəliyinin daha vacib xarakterli məsələləri özündə əks etdirərək qısaldılması, qurum tərəfindən qəbul edilən qətnamələrin məzmununun və icra mexanizminin gücləndirilməsi, Assambleyanın altı əsas komitəsinin fəaliyyətinin əlaqələndirilməsinin və iş prosedurlarının təkmilləşdirilməsi, Assambleya Prezidentinin rolunun və nüfuzunun artırılması və BMT Baş Katibinin seçilməsində onun rolunun gücləndirilməsi zəruridir.

İqtisadi və Sosial Şuranın (EKOSOK) islahatları BMT-nin iqtisadi və sosial sahədə fəaliyyətinin təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət daşıyır. İqtisadi və Sosial Şura Baş Assambleya və Katibliklə birlikdə BMT sistemi adlanan çoxlu sayda ixtisaslaşmış qurumlar, fond və proqramların fəaliyyətinə ümumi nəzarəti həyata keçirir. BMT Nizamnaməsinə əsasən EKOSOK təşkilatın beş əsas orqanından biri olmasına baxmayaraq, elə həmin sənədə əsasən bu qurum digər əsas orqanlardan fərqli olaraq Baş Assambleyadan asılı vəziyyətdədir. Nizamnaməyə əsasən EKOSOK iqtisadi və sosial məsələlərə cavabdeh qurum olmasına baxmayaraq, Baş Assambleyaya tövsiyələr verir, həlledici qərarlar qəbul etmir. [13] EKOSOK-un islahatlarına dair təkliflər arasında BMT-dən kənarda G20 ("Böyük iyirmilik") və ya L20 (Liderlər 20) yaradılması təklifi diqqəti cəlb edir. Bu təklif "Böyük səkkizliyin" dünya iqtisadiyyatı ilə bağlı qəbul edilən qərarlar üzərində inhisarını aradan qaldırmaq məqsədi daşıyır. Qeyd etmək lazımdır ki, 2008-ci ildə başlayan dünya iqtisadi böhranı ilə təkbaşına mübarizə aparmaqda çətinlik çəkən "G8"-in son dövrlərdə "G20" formatında toplaşmağa üstünlük verməsi bu ideyanın reallığa daha uyğun olmasının göstəricisidir.

---

[13] Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və Beynəlxalq Məhkəmənin Statutu. - B.: Azərbaycan, Maddə 62

Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) BMT-nin digər orqanlarından fərqli olaraq daha az tənqidlərlə üzləşir və onun fəaliyyəti ümumilikdə beynəlxalq ictimaiyyət və tanınmış hüquq ekspertləri, eləcə də ictimai xadimlər tərəfindən yüksək qiymətləndirilir. BƏM-in BMT sistemindəki yeri ilə bağlı xüsusilə vurğulanmalıdır ki, bu orqanın BMT-nin digər əsas orqanı olan TŞ ilə münasibətlərində də düzəliş etməyə ehtiyac vardır. Belə ki, BƏM-in baxdığı işə tərəf olan dövlətlərdən biri sonda məhkəmənin qərarını icra etməkdən imtina edərsə digər tərəf müvafiq tədbirlərin görülməsi üçün TŞ-yə müraciət edə bilər.[14] TŞ isə məhkəmənin qərarının icrasını təmin edib-etməməklə bağlı qərarı özü verir. Zənnimizcə, bu hal BƏM-i Şuradan asılı vəziyyətə salmış olur. Çünki BƏM hansı qərarı verirsə-versin sonda bu qərarın icrası yenə də Şuradan asılı olur və bu kimi hallarda hüquqi baxımdan düzgün olan bir qərarın siyasi səbəblər ucbatından icra olunmaması mümkünlüyü meydana çıxır. BƏM-in BMT orqanları arasında nüfuzunun gücləndirilməsi üçün onun TŞ-dən asılılığının aradan qaldırılması zəruri görünür.

Katiblik BMT sistemində mühüm yer tutan orqanlardan biridir. Belə ki, BMT-nin digər əsas orqanlarının qərarlarının və qətnamələrinin hazırlanması və icrasında bu orqan əsas yeri tutur. Bu baxımdan Katibliyin də səmərəli fəaliyyət göstərməsi ümumilikdə bütün BMT sistemi üçün mühüm əhəmiyyət kəsb edir. BMT Katibliyinin islahatları ilə bağlı qeyd etmək lazımdır ki, BMT Baş katiblərinin ABŞ-ın diktəsi və təsiri altında fəaliyyət göstərmələrinə dair kifayət qədər faktlar olduğunu nəzərə alaraq, təşkilatın bu məsul şəxsinin bu cür asılılığının qarşısının alınması yolları axtarılmalıdır. Bunun üçün isə ilk növbədə BMT-nin və o cümlədən onun Katibliyinin fəaliyyətinin ABŞ-ın maliyyə dəstəyindən asılılığı aşağı salınmalıdır. Həmçinin Baş katibin seçilməsində əsas göstərici regional təmsilçilik və ya seçilən şəxsin hər hansı bir ölkədə yüksək vəzifə tutması deyil, onun liderlik qabiliyyəti, nüfuzu, təşkilatı yüksək səviyyədə təmsil etmək bacarığı kimi şəxsi keyfiyyətləri olmalıdır.

İkinci fəslin **"Beynəlxalq təhlükəsizliyin təminatı üçün Təhlükəsizlik Şurasının fəaliyyətinin gücləndirilməsi cəhdləri"** adlanan ikinci paraqrafında BMT-nin dünyada sülhü və sabitliyi təmin etmək kimi vacib vəzifəsinin yerinə yetirilməsi sahəsində mövcud

[14] Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və Beynəlxalq Məhkəmənin Statutu. - B.: Azərbaycan, Maddə 92.4

olan problemlər və onların həlli yolları araşdırılır. Burada əsas diqqət TŞ-nin islahatlarına yönəldilmişdir.

TŞ-nin islahatları ilə bağlı indiyədək bir çox təkliflər irəli sürülmüşdür. BMT Baş Katibinin Təhlükələr, təhdidlər və dəyişikliklər üzrə yüksək səviyyəli şəxslər qrupu tərəfindən 2004-cü ildə hazırlanmış "Daha təhlükəsiz dünya: bizim ortaq məsuliyyətimiz" adlı hesabatında Şuranın islahatlarının BMT nizamnaməsinin 23-cü maddəsinə əsasən BMT-yə maliyyə, hərbi və diplomatik baxımdan ən çox töhfə verənləri qərarqəbuletmə prosesinə cəlb etməli olduğu, qurumun işinin səmərəliliyini pozmaması və TŞ-də demokratiyanı və cavabdehliyi artırmalı olduğu qeyd edilir.[15]

Bu paraqrafda həmçinin Baş Assambleyada "Kiçik beşlik" (Kosta-Rika, İordaniya, Sinqapur, Lixtenşteyn, İsveçrə) və "Konsensus naminə birləşmək" adlı qruplaşmaların TŞ-də islahatların aparılması üçün irəli sürdükləri təkliflər, Şuranın beş daimi üzvünün, həmçinin bu qurumda daimi üzv olmağa namizəd ölkələrin, Afrika İttigaqı və Türkiyənin islahatlara dair mövqeləri təhlil edilmişdir. Təhlillər nəticəsində belə qənaətə gəlinmişdir ki, TŞ-nin islahatları ilə bağlı irəli sürülmüş təşəbbüslər Şuranın iş metodlarının təkmilləşdirilməsi və yaxud onun üzvlərinin sayının artırılması məsələlərinə həsr olunmasından asılı olmayaraq uzun sürən diplomatik danışıqlardan və müzakirələrdən sonra nəticəsiz qalır. Bunun da əsas səbəbi Şurada ciddi islahatların aparılmasının tərəfdarı olmayan ABŞ, Çin və Rusiya kimi dövlətlərin bəzən açıq şəkildə, əks hallarda isə pərdəarxası diplomatiya vasitəsilə son qərarın qəbul edilməsinə mane olmalarıdır. Bu baxımdan hesab edirik ki, BMT üzvləri ilk növbədə öz aralarında olan fikir ayrılıqlarına son qoymalı, ümumi maraqlara uyğun olan və BMT-nin fəaliyyətinin əsaslandığı norma və prinsiplərə cavab verən təkliflərin reallaşdırılması üçün səylərini birləşdirməlidirlər. BMT üzvlərinin əksəriyyətini qane edən islahat təklifləri müəyyənləşdirilmədiyi təqdirdə, təşkilatın fəaliyyətinin gücləndirilməsi istiqamətində hər hansı ciddi bir qərarın qəbul edilməsi mümkün olmayacaqdır.

İkinci fəslin **"BMT-nin sülhməramlı fəaliyyətində mövcud problemlər və islahatlar"** adlanan üçüncü paraqrafında təşkilatın sülhməramlı əməliyyatları – preventiv tədbirlər və sülhyaratma,

---

[15] "A more secure world: our shared responsibility", Report of the Secretary-General's High-level Panel on Threats, Challenges and Change, A/59/565, 2 December 2004, p. 66

sülhün qorunması və sülhquruculuğu – təhlil edilir. Bu sahədə mövcud problemlərin aradan qaldırılması üçün əsas tədbirlər kimi sülhməramlı əməliyyatların həyata keçirilməsi üçün hazırlıq səviyyəsinin artırılması, qoşunların yerləşdirilməsini sürətləndirmək, sülhqoruma qüvvələrinin silahlı münaqişənin qarşısını almaq və onu aradan qaldırmaq imkanlarının gücləndirilməsi və üzv dövlətlər tərəfindən tam siyasi və maliyyə dəstəyinin təmin edilməsi təklif edilir. Qeyd edilənlərlə yanaşı, bu əməliyyatların həyata keçirilməsində BMT-də olan bütün digər mühüm problemlərin həllində olduğu kimi, TŞ beşliyinin siyasi maraqları mühüm rol oynayır. Məsələn, 2008-ci ilin avqustunda Cənubi Osetiya ilə bağlı baş verən Rusiya-Gürcüstan hərbi münaqişəsindən sonra 2009-cu il iyunun 15-də Rusiya Federasiyasının TŞ-də BMT-nin Gürcüstandakı Müşahidə Missiyasının (UNOMİG) uzadılmasına veto qoyması bunun açıq göstəricisidir. Halbuki UNOMİG-in fəaliyyət zonasını yalnız Abxaziya və Kodori dərəsi təşkil edirdi. Bu hadisə BMT-nin sülhqoruma əməliyyatlarında dövlətlərin siyasi maraqlarının və maraqsızlığının oynadığı rolla yanaşı, bir daha TŞ beşliyinin veto hüququna məhdudiyyətlər qoyulmasının vacibliyinin göstəricisidir.

Dissertasiya işinin **“BMT-də islahatlar kontekstində BMT-Azərbaycan əməkdaşlığı”** adlı üçüncü fəslinin birinci paraqrafı **“BMT-Azərbaycan əməkdaşlığının qurulması və inkişafı”**na həsr olunmuşdur. Bu paraqrafda müstəqillik əldə etdikdən sonra ölkəmizin BMT-yə üzv olması və bu təşkilatla yüksələn xətlə inkişaf edən əməkdaşlıq münasibətləri təhlil olunmuşdur. Ölkəmizin BMT-nin əsas orqanları, xüsusilə də Baş Assambleya və TŞ-dəki diplomatik fəaliyyəti təhlil edilərək Baş Assambelyada Azərbaycan tərəfindən irəli sürülmüş bir sıra təşəbbüslər, o cümlədən “Sənayedə şəffaflığın gücləndirilməsi”, “İtkin düşmüş şəxslər haqqında”, “Beynəlxalq Novruz günü” adlı qətnamələr barədə məlumat verilmiş, Azərbaycanın TŞ-yə üzv seçilmək istiqamətində göstərdiyi ardıcıl və məqsədyönlü diplomatik səylər işıqlandırılmışdır. Azərbaycanın TŞ-nin qeyri-daimi üzvlüyünə qəbul olunması tarixi bir hadisə olmaqla ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi qiymətləndirilməlidir. Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda TŞ-yə üzvü seçilən ilk ölkə olmuşdur. TŞ-yə üzvlüyümüz diplomatiyamız üçün irəliləyiş olmaqla yanaşı, həm ölkəmizin xarici siyasəti qarşısında duran əsas problemlərin dünya ictimaiyyətinin diqqətinə yüksək səviyyədən çatdırmaq imkanlarının, həm də onun

beynəlxalq nüfuzunun daha da artmasına xidmət etmişdir. Şurada ilk üzvlük ölkəmiz üçün bir növ sınaq və təcrübə dövrü kimi qiymətləndirilə bilər. Azərbaycan dünyanın ən nüfuzlu qurumunda üzv olmaqla beynəlxalq aləmdə baş verən mühüm problemlərin müzakirəsi və həlli prosesində birbaşa iştirak etmişdir. Bu ölkə diplomatiyası üçün böyük təcrübə olmuş, Azərbaycanın bu cür mühüm vəzifəsinin öhdəsindən gəlmək potensialının və imkanlarının olduğu öz sübutunu tapmışdır.

Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin TŞ-də iki il müddətindəki üzvlüyü zamanı göstərdiyi fəaliyyəti dəyərləndirərək qeyd etmişdir ki, "İki il ərzində Azərbaycan öz mövqeyini ortaya qoydu. Mən bəyan etdiyim kimi, BMT Təhlükəsizlik Şurasında biz beynəlxalq hüququ və ədaləti müdafiə etmişik, hər bir məsələ ilə bağlı konkret mövqe sərgiləmişik, prinsipial mövqe tutmuşuq."[16]

Təhlillər göstərmişdir ki, Azərbaycan Respublikasının BMT üzvlüyünə daxil olması ilə yaranan qarşılıqlı əlaqələr sürətli inkişaf yolu keçərək, çoxşaxəli əməkdaşlığa çevrilmiş və Azərbaycanın müstəqil dövlət kimi inkişafında, beynəlxalq aləmdə müvafiq yer tutmasında mühüm rol oynamışdır. Eyni zamanda, Azərbaycan da bu mötəbər beynəlxalq təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə, beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfəsini vermişdir. Son illərdə Azərbaycanın BMT-nin Baş Assambleyasında və onun digər qurumlarında böyük dəstək qazanan təşəbbüslərlə çıxış etməsi həm ölkəmizin BMT-nin çoxşaxəli fəaliyyətinin müxtəlif sahələrinə töhfəsi olmuş, həm də onun bu təşkilatda olan nüfuzunun daha da artmasına gətirib çıxarmışdır. Respublikamızın iqtisadi gücünün artması ilə əlaqədar olaraq, Azərbaycan BMT-nin yardım alan ölkələri sırasından çıxaraq, tədricən donor ölkələri sırasına qatılmışdır.

Üçüncü fəslin **"Azərbaycan Respublikasının BMT-nin əsas orqanlarının islahatlarında siyasi maraqları və mövqeyi"** adlanan ikinci paraqrafında ölkə rəsmilərinin BMT-də islahatlar məsələsi ilə bağlı fikirləri təhlil edilmişdir. 2003-cü ilin sentyabrında BMT Baş Assambleyasının 58-ci sessiyasındakı çıxışında həmin dövrdə

[16] Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin giriş nitqi, http://www.president.az/articles/10799

Azərbaycan Respublikasının Baş naziri olan İlham Əliyev beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlərin arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə, TŞ-nin şəraitə uyğun olaraq çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələblərinə cavab vermədiyini vurğulamış və bununla bağlı olaraq BMT-də islahatların vacib məsələyə çevrildiyini bildirmişdir. O qeyd etmişdir ki, TŞ-də "həm bugünkü, həm də yarım əsrlik reallıqlar öz əksini tapmalıdır".[17]

Azərbaycan beynəlxalq aləmdə BMT-nin rolunun artırılması və mövcud problemlərin həllində daha təsirli tədbirlərin görülməsinə nail olmaq üçün əlavə addımların atılması zərurətini BMT Baş Assambleyasının 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında yenidən gündəliyə gətirmişdir. Sessiyada çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir ki, "təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verməlidir".[18]

Mövqeyimizə dair fikirlərə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun BMT Baş Assambleyasındakı çıxışlarında da rast gəlmək olar. Belə ki, bu çıxışlarda E.Məmmədyarov bildirmişdir ki, BMT-nin və TŞ-nin islahatları BMT sisteminə olan inamı yüksəltməli, BMT siyasətini həyata keçirən əsas orqan kimi Baş Assambleyanın qərarqəbuledicilik və məşvərətçi rolunu artırmalı, TŞ-nin islahatları isə təkcə onun üzvlərini sayının artırılması ilə bitməməli, onun iş metodları təkmilləşdirilməli, qərar qəbuletmə prosesi şəffaflaşdırılmalı, qətnamələrinin icrası tam olaraq həyata keçirilməlidir.[19]

---

[17] Statement by H.E. Ilham Aliyev at the General Debate of the 58th session of the General Assembly, www.un.org/webcast/ga/58/

[18] Statement by H.E. Ilham Aliyev at the General Debate of the 59th session of the General Assembly, www.un.org/webcast/ga/59/

[19] Statement by H.E. Mr. Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan at the General Debate of the 61st session of the General Assembly, 25 September 2006, www.un.org/webcast/ga/61/; Statement by H.E. Mr. Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan at the General Debate of the 63rd session of the General Assembly, 27 September 2008, www.un.org/webcast/ga/63/

İslahatlara dair ölkə rəsmiləri tərəfindən səsləndirilən bu fikirlər ölkəmizin maraqlarını tam olaraq özündə əks etdirir. Belə ki, Təhlükəsizlik Şurasının qətnamələrinin icrası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair TŞ tərəfindən 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrin indiyədək icra olunmaması ilə, BMT Baş Assambelyasının rolunun artırılması isə, son illərdə ölkəmizin bu qurumda münaqişə ilə bağlı bir sıra təşəbbüslər irəli sürməsi və onların uğurla qəbul edilməsi ilə bağlıdır. Əgər BMT-də gedən islahatlar çərçivəsində TŞ-nin qəbul etdiyi qətnamələrin icrasına nəzarət edən effektiv bir nəzarət mexanizmi yaradılarsa, bu Şuranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi qətnamələrin icrasına da öz töhfəsini vermiş olar.

Təhlillər göstərmişdir ki, son bir neçə il ərzində ölkəmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Baş Assambleyadakı fəaliyyətini gücləndirərək, öz maraqlarına cavab verən qətnamələrin qəbuluna nail ola bilmişdir. Baş Assambleyanın qətnamələri bütün dünya dövlətlərinin və ya onların əksər hissəsinin mövqeyini özündə əks etdirməsi baxımından kifayət qədər əhəmiyyətli sənədlərdir. Məlum olduğu kimi, TŞ-dən fərqli olaraq BMT Baş Assambleyasının fəaliyyəti ədalət prinsiplərinə daha çox söykənərək dövlətlərin suveren bərabərliyinə əsaslanır. Bu baxımdan, Azərbaycan kimi TŞ-də ədalət tapa bilməyən dövlətlərin öz maraqlarını Baş Assambleya vasitəsilə təmin etmək cəhdləri tam məntiqə uyğundur və bu orqanın nüfuzunun artması, beynəlxalq sülh və təhlükəsizlik məsələlərinin həllinə daha yaxından cəlb olunması bütün kiçik dövlətlər kimi Azərbaycanın da maraqlarındadır. BMT Nizamnaməsinə əsasən Baş Assambleya TŞ-nin gündəliyində olmayan beynəlxalq sülh və təhlükəsizliyə dair məsələni müzakirə etmək və tövsiyələr vermək hüququna malikdir. Hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin TŞ-nin gündəliyində olmadığını nəzərə alaraq, Azərbaycan münaqişəyə dair Baş Assambleyada öz maraqlarına uyğun sənədlərin qəbulu imkanlarından yararlanmağa çalışır və bu istiqamətdə səylərimizin davam etdirilməsi zəruri görünür.

Üçüncü fəslin sonuncu paraqrafı **“BMT-nin İnsan Hüquqları Şurası və Azərbaycan Respublikasının bu qurumdakı diplomatik fəaliyyəti”**nə həsr olunmuşdur. 2005-ci il Ümumdünya Sammitinin yekun sənədinə əsasən BMT-nin insan hüquqlarının müdafiəsi

sahəsində yeni bir qurumunun – İnsan Hüquqları Şurasının (İHŞ) yaradılması qərara alınmış və 2006-cı il martın 15-də BMT Baş Assambleyasının qətnaməsi əsasında BMT-nin İnsan Hüquqları Komissiyasının əvəzinə İHŞ təsis olunmuşdur. Şuraya ilk səsvermə 2006-cı il mayın 9-da keçirilmiş və Azərbaycan diplomatiyasının uğurlu fəaliyyəti nəticəsində ölkəmiz bu quruma seçilən ilk 47 ölkədən biri olmuşdur. Azərbaycan Şuraya seçilməklə kifayətlənməmiş, üzvlük müddətində bu qurumun ən fəal üzvlərindən biri olmuşdur. Bu fəallıq özünü həm ölkəmizin maraqlarını əks etdirən qətnamələrin irəli sürülməsində, həm də Azərbaycanın daxil olduğu Şərqi Avropa Qrupunun əlaqələndiricisi və İslam Əməkdaşlığı Təşkilatına 2006-2007-ci illərdə sədrlik edən ölkə kimi İKT-nin Cenevrədəki qrupunun sədri vəzifələrinin uğurla yerinə yetirməsindən irəli gəlmişdir. Şurada göstərilən fəallığın nəticəsi olaraq BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi nümayəndəmiz 2008-2009-cu illər üzrə İnsan Hüquqları Şurasının sədr müavini və məruzəçisi seçilmişdir.[20]

Şurada üzv olduğu müddətdə Azərbaycan Hökuməti bu qurumda ölkəmiz üçün çox aktual və vacib olan mövzular üzrə iki qətnamə (“Silahlı münaqişələr zamanı mədəni hüquqların və mülkiyyətin qorunması” və “İtkin düşmüş şəxslər”) irəli sürmüşdür.

İnsan Hüquqları Şurasına üzv olduğu müddətdə Azərbaycan Hökuməti həm ölkəmizin, həm müsəlman dünyasının, eləcə də, ümumilikdə bəşəriyyətin maraq dairəsində olan bir sıra mühüm məsələlərin gündəliyə gətirilməsi, mövcud problemlərin aradan qaldırılması üçün yolların axtarılmasında kifayət qədər fəallıq göstərmişdir. Beləliklə, Azərbaycan Respublikası BMT-də start götürmüş islahatlar prosesinin fəal iştirakçısına çevrilməklə bu prosesdən həm öz beynəlxalq nüfuzunun artırılması, həm də milli maraqlarımızın təmin olunması üçün yararlana bilmişdir.

İşin **Nəticə** hissəsində tədqiqat prosesində aparılan təhlillər, elmi mülahizələr ümumiləşdirilmiş, onların əsasında BMT-nin əsas orqanlarında aparılması vacib hesab edilən və Azərbaycanın xarici siyasi maraqlarına cavab verən islahat təklifləri müəyyənləşdirilmişdir. Müəllifin gəldiyi qənaət ondan ibarətdir ki,

---

[20] Interview with his Excellency Mr.Elchin Amirbayov, Ambassador of Azerbaijan to the United Nations - “In the Human Rights Council”, Diva international journal, http://www.divainternational.ch/spip.php?article315

BMT-nin beynəlxalq həyata səmərəli təsir etmək qabiliyyətinin saxlanılması, eləcə də beynəlxalq münasibətlər sisteminin tənzimlənməsinin ən vacib mexanizmlərindən olan bu qurumun öz funksiyalarını effektiv şəkildə reallaşdırmaq imkanları məhz bu islahat təkliflərinin reallaşmasından asılıdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. BMT çərçivəsində çoxtərəfli Azərbaycan diplomatiyasının inkişafında ümummilli lider Heydər Əliyevin rolu // "Heydər Əliyevin zəngin siyasi, mənəvi irsi milli sərvətimizdir" mövzusunda aspirant və dissertantların VI (2007) elmi konfranslarının materialları, Bakı: , 2007, s.63-69
2. Birləşmiş Millətlər Təşkilatı – Azərbaycan əməkdaşlığının qurulması və inkişafında ümummilli lider Heydər Əliyevin rolu //Heydər Əliyevin zəngin siyasi, mənəvi irsi milli sərvətimizdir" mövzusunda aspirant və dissertantların VII (2008) elmi konfranslarının materialları, Bakı: , 2008, s.36-41
3. BMT-nin İnsan Hüquqları Şurası və Azərbaycan Respublikasının bu qurumdakı fəaliyyəti // "Diplomatiya aləmi" jurnalı, 25/2009, (İSSN: 1818-4998) Bakı: , 2009, s. 51-55
4. XXI əsr üçün yararlı BMT: uyğunlaşma və islahatlar// "Dirçəliş – XXI əsr" jurnalı, 145-146/2010, Bakı: , 2010, s.313-322
5. BMT Təhlükəsizlik Şurasının islahatları: təkliflər və aparıcı dövlətlərin mövqeyi// "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı 3(31)/2010, Bakı: , 2010, s. 167-173
6. Article 51 of the UN Charter and Armenia-Azerbaijan conflict //Türkiyə Xarici İşlər Nazirliyinin "Perception" jurnalının spring-summer/2010, Volume XV, N 1-2, p.75-98
7. Beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında BMT Baş Assamblyeasının rolu və Azərbaycanın bu qurumdakı fəaliyyəti// "Diplomatiya aləmi" jurnalı, 30/2011, Bakı: , 2011, s.72-81
8. The UN responsibility to protect: Libyan war 2011// "Journal of Qafqaz University", "Hüquq, tarix və politologiya" seriyası, 31 (2011), Bakı: , 2011, s.93-100

9. Azərbaycan Respublikasının BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilmək istiqamətindəki səyləri və üzvlüyün yaratdığı imkanlar// "Strateji təhlil" jurnalı, 2011/3, Bakı: , 2011, s.71-81
10. The Security Council's endless enlargement debate // "Central European Journal of International and Security Studies", 3-4/2012, (İSSN 1802548X) Prague, 2012, p.269-288

**Шафа Вахид кызы Гасымова**

**Реформы в ООН и Азербайджанская Республика**

**Резюме**

Современные международные отношения значительно отличаются от тех, которые существовали во время основания Организации Объединенных Наций (ООН). На сегодняшний день количество членов ООН выросло с 51 до 193 государств, завершилась холодная война, а международное сообщество столкнулось с новыми угрозами глобальному миру и безопасности. В этом контексте реформирование ООН, важность которой не вызывает сомнений, стала жизненной необходимостью.

Диссертация состоит из введения, трех глав, восьми параграфов, заключения и библиографии.

Первая глава исследования посвящена основным недостаткам в функционировании организации, общим приоритетам ведущих групп государств в Генеральной Ассамблее в реформировании ООН и существующим вызовам общему процессу.

Во второй главе представлен комплексный анализ предложений по реформированию основных органов ООН. Данная часть работы охватывает также тщательный анализ национальных позиций активных участников международных отношений по поводу процесса реформ.

Третья глава диссертации содержит исследование сотрудничества между ООН и Азербайджанской Республикой и влияния процесса реформирования на политические интересы страны. Анализ предложений по реформам, реализация которых могла бы способствовать справедливому урегулированию армяно-азербайджанского, нагорно-карабахского конфликта, также отражен в этой главе.

В результате исследования автор приходит к выводу, что реформы в ООН необходимы для эффективного реагирования на современные угрозы миру и безопасности, а также являются законными ожиданиями международного сообщества в целях обеспечения долгосрочного развития. Автор, в свою очередь, представляет комплекс предложений, ориентированных на улучшение работы ООН и в этом контексте, способствующих реализации национальных интересов Азербайджана.

**Shafa Vahid Gasimova**

## Reforms in the UN and the Republic of Azerbaijan

**Summary**

The modern picture of international relations differs from the one which was prevailing when the United Nations was founded. The membership of the organization has grown from 51 to 193 states, the Cold War has come to an end and new threats to international peace and security has emerged. In this context, reforming the UN, whose importance in the international relations is unquestionable, has become a vital necessity. Today there is a prevailing view among international community that the time is ripe to carry out an effective reform in the organization.

The main aim of the research is to analyze the root causes of the gaps in the functioning of the main UN bodies and the ways of improving their work through carrying out necessary reforms.

The dissertation consists of the introduction, three chapters, eight paragraphs, conclusion and bibliography.

The first chapter of the research deeply examines the main shortcomings of the organization, the priorities of the major groups in the General Assembly in the reforms and challenges to the process.

The second chapter gives comprehensive analyses of the proposals on the reforms of the main UN bodies. The positions of the

leading actors of international relations on the reform process have been deeply analyzed in the second part of the research work.

The third chapter of the research is dedicated to the analyses of the cooperation between the UN and the Republic of Azerbaijan and the impact of the possible reforms to the political interest of the country. This part also examines the proposals which can serve to the positive solution of the Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict.

As a result of the research the author comes to the conclusion that the reforms in the UN is necessary to respond efficiently to the modern threats to peace and collective security and also to the pressing and legitimate expectations for development needs. The author gives a complex of proposals which can serve to the improvement of the work of the organization and meeting the national interests of Azerbaijan.